**AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT STATİSTİKA KOMİTƏSİ**

**Q Ə R A R**

**№ 40/18**

**Bakı şəhəri** **29 oktyabr 2024-cü il**

**Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 15 avqust tarixli 181 nömrəli Fərmanının qəbul edilməsi ilə əlaqədar normativ hüquqi aktların kolliziyasının aradan qaldırılması məqsədilə Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 24 iyun tarixli 115 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi haqqında Əsasnamə"nin 9.6-cı və 14.4-cü bəndlərini rəhbər tutaraq, "Bakı şəhərinin inzibati ərazisində avtomobil nəqliyyatı sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 19 aprel tarixli 2109 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və Sərəncamında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 15 avqust tarixli 181 nömrəli Fərmanının icrasının təmin edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 26 avqust tarixli 450s nömrəli Sərəncamının 2-ci hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi

**qərara alır:**

1. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2013-cü il 26 fevral tarixli 9/09 nömrəli qərarı ilə təsdiq edilmiş "Yol hərəkəti və onun təhlükəsizliyi göstəriciləri haqqında" 2 №-li (DYP) rüblük rəsmi statistika hesabatı formasının "I bölmə. Yol hərəkəti ilə bağlı inzibati xətalar" bölməsində aşağıdakı dəyişikliklər edilsin:

1.1. aşağıdakı məzmunda 2-5-ci və 2-6-cı sətirlər əlavə edilsin:

| | | | |
|---|---|---|---|
| 319.1. Şəhərdaxili (rayondaxili) sərnişin daşımaları yerinə yetirən avtobusda sərnişinin müvafiq qaydada ödəniş etmədən getməsi | 2-5 | | |
| 320.1. Şəhərdaxili (rayondaxili) sərnişin daşımaları yerinə yetirən avtobusda müvafiq qaydada ödəniş edilmədən sərnişinin aparılması | 2-6 | | |

1.2. 5-1-ci sətir 5-2-ci sətir hesab edilsin və həmin sətrə "taksi" sözündən əvvəl "müntəzəm şəhərdaxili (rayondaxili), şəhərlərarası (rayonlararası) və beynəlxalq marşrutlar üzrə hərəkət edən avtobusda, sərnişin daşımaları üzrə ümumi istifadədə olan avtomobil nəqliyyatı vasitəsində və" sözləri əlavə edilsin;

1.3. aşağıdakı məzmunda 5-1-ci, 5-3-cü və 5-4-cü sətirlər əlavə edilsin:

| | | | |
|---|---|---|---|
| 322.0.3. müəyyən edilmiş tarifdən daha yüksək gediş haqqının tətbiq edilməsi | 5-1 | | |

| | | | |
|---|---|---|---|
| 322.0.5. müntəzəm şəhərdaxili (rayondaxili), şəhərlərarası (rayonlararası) və beynəlxalq marşrutlar üzrə hərəkət edən avtobuslarda aparılmasına yol verilməyən əşyaların daşınması | 5-3 | | |
| 322.0.6. müntəzəm şəhərdaxili marşrutlarda daşıma prosesi ilə bilavasitə əlaqəsi olmadıqda audio cihazlardan istifadə edilməsi | 5-4 | | |

1.4. 142-ci sətirdə "svetoforlar" sözü "svetoforların Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin" sözləri ilə, "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin, Bakı şəhərinin inzibati ərazisində isə Bakı Nəqliyyat Agentliyinin" sözləri "Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi qismində Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin (Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin rəyi nəzərə alınmaqla)" sözləri ilə əvəz edilsin;

1.5. 174-cü sətrə "təhlükəsizliyi" sözündən sonra "sahəsində nəzarəti həyata keçirən Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin, habelə Bakı şəhərinin inzibati ərazisində Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi qismində Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin," sözləri əlavə edilsin və həmin sətirdə "Daxili İşlər Nazirliyinin, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin və ya Bakı Nəqliyyat Agentliyinin" sözləri "Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi qismində Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin" sözləri əvəz edilsin.

2. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2016-cı il 28 dekabr tarixli 23/09 nömrəli qərarı ilə təsdiq edilmiş "İnzibati məhkəmələrdə inzibati mübahisələrə baxılması haqqında" 2-5 №-li (yarımillik, illik) rəsmi statistika hesabatı formasının 35-ci və 55-ci sütunları ləğv edilsin.

3. Qərar qəbul edildiyi gündən üç gün müddətində Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim edilsin.

4. Aparatın Xidmət statistikası və Sosial statistika şöbələrinə tapşırılsın ki, bu qərardan irəli gələn məsələləri həll etsinlər.

5. Qərarın icrasına nəzarət Statistika işlərinin əlaqələndirilməsi və strateji planlaşdırma şöbəsinə həvalə olunsun.

**Sədrin səlahiyyətlərini müvəqqəti**
**icra edən, sədrin birinci müavini** **Vahab Məmmədov**